ARAŞDIRMA HESABATLARI

# Azərbaycan Kənd Təsərrüfatı Sektoruna Ümumi Baxış: Statistik İcmal

Oktyabr 2025

# Mündəricat


- Giriş və xülasə: 3
- Kənd Təsərrüfatının Qlobal İqtisadiyyatdakı Rolu və Azərbaycan İqtisadiyyatındakı Payı: 4-5
- Azərbaycanın Kənd Təsərrüfatı Sektorunun Ümumi Statistikası və İqtisadiyyatın Sahələri üzrə Fondlar: 6-7
- Kənd Təsərrüfatındakı Məşğul Əhali və Sektorun Maliyyə Vəziyyəti: 8
- Azərbaycanın Kənd Təsərrüfatında ən Öndə Gedən Bölgələr: 9
- Kənd Təsərrüfatı Məhsullarının İstehlakı və İstehsalı: 10
- Bitkiçilik üzrə Məhsuldarlıq, Kənd Təsərrüfatına Yararlı Torpaqlar və Əkin Sahələri: 11-12
- Kənd Təsərrüfatında Heyvandarlıq: 13-15
- Kənd Təsərrüfatının Texnika ilə Təminatı: 16
- Azərbaycanın Kənd Təsərrüfatı Məhsulları üzrə Beynəlxalq Ticarəti: 17
- Kənd Təsərrüfatının Ümumi Məhsulunun Strukturu: 18
- Kənd Təsərrüfatı üzrə Kreditləşmə: 19
- Azərbaycan və Digər Ölkələr arasında Müqayisə: 20
- Azərbaycanda Kənd Təsərrüfatı Subsidiyaları: Strateji Dəstək və Rəqəmsal Transformasiya, Subsidiyaların Tendensiyası:
- 21-22
- Azərbaycanda Kənd Təsərrüfatının İnkişafı Perspektivləri: Çağırış və Təkliflər: 23
- Məsuliyyət: 24

# Giriş və Xülasə

*Bu araşdırma Azərbaycanın kənd təsərrüfatı sektorunun mövcud vəziyyətini, çağırışlarını və inkişaf perspektivlərini əhatə edir.*

**İqtisadi rol və struktur:** Kənd təsərrüfatı ÜDM-in təxminən **6%-ni** təşkil edərək məşğulluqda aparıcı sahələrdən biridir. Sektorun strukturunda istehsalın böyük hissəsi **(85-90%)** fərdi və ailə təsərrüfatlarının payına düşür. Ümumi məhsul istehsalına görə **Şəmkir,** əkin sahələrinə görə **Cəlilabad,** heyvandarlıqda isə **Sabirabad** və **Mil-Muğan** regionları liderdir.

**Torpaq resursları və istehsal:** Ölkə ərazisinin yalnız **23.5%-i** əkinəyararlı torpaqlardır, **44.9%-i** isə kənd təsərrüfatına yararsızdır. Əkin sahələrinin **60%-dən çoxunda** dənli bitkilər becərilir ki, bu da diversifikasiya ehtiyacını göstərir. Heyvandarlıq məhsulları istehsalı bitkiçiliyə nisbətən daha sabit artım nümayiş etdirir.

**Ticarət balansı:** İxracda dəyərinə görə **pambıq lifi (178.2 milyon USD)** və **tomat (175.4 milyon USD)** əsas yer tutur. İdxalda isə buğda (1.3 milyon ton) kəskin üstünlüklə liderdir və bu, ərzaq təhlükəsizliyi üçün strateji asılılığa işarə edir.

**Əsas çağırışlar və təkliflər:** Sektorun əsas problemləri **su qıtlığı, torpaqların deqradasiyası, təsərrüfatların pərakəndəliyi, maliyyə resurslarına məhdud çıxış və müasir texnologiyaların ləng tətbiqidir. Strateji həll yolları kimi suvarma sistemlərinin modernləşdirilməsi, "ağıllı kənd təsərrüfatı" texnologiyalarının tətbiqi, fermer kooperasiyalarının təşviqi və ixrac yönümlü, yüksək dəyərli məhsul istehsalının stimullaşdırılması** təklif olunur.

# Kənd Təsərrüfatının Qlobal İqtisadiyyatdakı Rolu

*Kənd təsərrüfatı qlobal iqtisadiyyatın dayağı olmaqla milyardlarla insanın həyatını və ərzaq təhlükəsizliyini birbaşa təmin edir. Sektorun dünya iqtisadiyyatına təsiri yalnız birbaşa iqtisadi göstəricilərlə deyil, həm də sosial dayanıqlılıq və ekoloji tarazlıqdakı rolu ilə müəyyən edilir.*

## Əsas Statistik Göstəricilər:

- **Ümumi Daxili Məhsul (ÜDM):** Dünya Bankının ilkin proqnozlarına görə, 2024-cü ildə kənd təsərrüfatı, meşəçilik və balıqçılıq fəaliyyətinin qlobal ÜDM-dəki payı təxminən **4%** civarında olmuşdur. Bu göstərici aşağı gəlirli ölkələrdə ÜDM-in **25%-dən çoxunu** təşkil edərək həmin ölkələr üçün həyati əhəmiyyət daşıyır.
- **Məşğulluq:** BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) son hesabatlarına görə, 2022-ci ildə dünya işçi qüvvəsinin təxminən **892 milyon nəfəri** və ya **26%-i** kənd təsərrüfatında çalışıb. Bütövlükdə ərzaq sistemləri (istehsal, emal, daşınma, pərakəndə satış və s.) dünyada təxminən **1.3 milyard** insanı işlə təmin edir. 2024-2025-ci illərdə bu tendensiyanın əsaslı şəkildə dəyişməyəcəyi proqnozlaşdırılır.
- **Bazarın Dəyəri:** FAO-nun məlumatına əsasən, qlobal kənd təsərrüfatı istehsalının dəyəri son iyirmi ildə real ifadədə təxminən iki dəfə artaraq 2022-ci ildə **3.8 trilyon ABŞ dollarına** yüksəlmişdir. İqlim dəyişikliyi və geosiyasi gərginliklərin təsirlərinə baxmayaraq, qlobal ərzaq tələbatının artması fonunda bu bazarın dəyərinin artmağa davam edəcəyi gözlənilir.

## Strateji Əhəmiyyəti:

- **Ərzaq Təhlükəsizliyi və Artan Tələbat:** BMT-nin proqnozlarına görə dünya əhalisi 2050-ci ilə qədər 9.7 milyarda çatacaq ki, bu da qlobal ərzaq istehsalının təxminən **50% artırılmasını** tələb edir. Bu, kənd təsərrüfatını gələcək onilliklərin ən strateji sektoru edir.
- **Yoxsulluğun Azaldılması:** Dünya Bankının hesabatlarına görə, kənd təsərrüfatındakı artım digər sektorlara nisbətən yoxsulluğun azaldılmasında **2-3 dəfə** daha təsirlidir. Dünyadakı yoxsul əhalinin böyük əksəriyyəti kənd yerlərində yaşayır və onların əsas dolanışıq mənbəyi aqrar fəaliyyətdir.
- **Sənaye üçün Xammal Təchizatı:** Aqrar sektor qida emalı, toxuculuq, bioyanacaq və əczaçılıq kimi kritik sənaye sahələrinin davamlı fəaliyyətini təmin edən əvəzsiz xammal mənbəyidir.
- **Davamlı İnkişaf və İqlimə Təsirlər:** Müasir kənd təsərrüfatı qlobal istixana qazı emissiyalarının təxminən dörddə birinə və şirin su istifadəsinin **70%-nə** cavabdehdir. FAO-nun son hesabatına görə, qlobal ərzaq sistemlərinin ətraf mühitə və sağlamlığa vurduğu dolayı xərclər ildə **10 trilyon dollardan çox** qiymətləndirilir. Buna görə də, ağıllı və dayanıqlı kənd təsərrüfatına keçid qlobal iqtisadiyyatın gələcəyi üçün kritikdir.

***Nəticə:** 2024-2025-ci illər və sonrası üçün proqnozlar göstərir ki, kənd təsərrüfatının qlobal ÜDM-dəki birbaşa payı sabit qalsa da, onun ərzaq təhlükəsizliyi, məşğulluq, yoxsulluğun azaldılması və digər sənaye sahələrinin inkişafındakı fundamental rolu daha da artacaq. Bu, Azərbaycan kimi ölkələr üçün aqrar sektorun modernləşdirilməsini və davamlı inkişafını prioritetləşdirməyin strateji zərurət olduğunu təsdiqləyir.*

*Mənbə: Food and Agriculture Organization of United Nations, International Monetary Fund, World Bank*

# Kənd Təsərrüfatının Azərbaycan İqtisadiyyatındakı Payı

ABB

**İqtisadiyyatın sahələri üzrə ümumi daxili məhsul, faktiki qiymətlərlə, 2024 , %**




**Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsinin ÜDM-də illər üzrə dəyişən çəkisi, %**




**İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş **investisiya, 2024, %**




**Kənd təsərrüfatı müəssisələri üzrə kənd təsərrüfatının ümumi məhsulu, milyon AZN**

**Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə kənd təsərrüfatının ümumi məhsulu, milyon AZN**

**Ümumi məhsul kənd təsərrüfatı müəssisələrinin və fərdi təsərrüfatların istehsal etdiyi bütün məhsul və xidmətlərin (məhsulun istehsalı zamanı sərf olunan aralıq istehlakın – orta məhsulun – dəyəri daxil olmaqla) faktiki satış qiymətləri ilə hesablanmış ümumi dəyəridir.**







*Mənbə: Dövlət Statistika Komitəsi*

*2024-cü ildəki 21.4 milyard AZN cəmi investisiyanın 283 milyon AZN-ni kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılığın payına düşür.

**Maddi-texniki bazanın yaradılmasına, istehsal potensialının, istehsal gücünün və iqtisadiyyatın uzunmüddətli inkişafının artırılması yönəldilmiş xərclərdir.

# Kənd Təsərrüfatının Azərbaycan İqtisadiyyatındakı Payı

**Kənd təsərrüfatına yararlı torpaqların təsnifatı, 2024 , %**




**Kənd təsərrüfatı məhsulları istehsalının fiziki həcm indeksi, əvvəlki ilə nisbətən müqayisəli qiymətlərlə, %**




**Kənd təsərrüfatı müəssisələri və fərdi sahibkar təsərrüfatlarının sayı, ədəd**




**Bütün təsərrüfat kateqoriyaları üzrə əkin sahələrinin strukturu, %**




Əkinəyararlı torpaqların cəmi **23.5%**, yararsız torpaqların isə **44.9% t**əşkil etməsi, mövcud resursların daha səmərəli idarə olunması və yararsız torpaqların **rekultivasiyası** yolu ilə aqrar sektorun genişləndirilməsi üçün potensialın mövcudluğunu göstərir.

Qrafiklər göstərir ki, **2016-2019-cu** illər ərzində **fərdi sahibkar təsərrüfatlarının** sayında kəskin azalma baş versə də, **iri kənd təsərrüfatı müəssisələrinin** sayı nisbətən sabit qalmışdır. Bu, aqrar sektorda kiçik təsərrüfatların bazardan çıxması və ya konsolidasiyası kimi **struktur dəyişikliklərinə** işarə edir. 2020-ci ildən sonra fərdi təsərrüfatların sayında **cüzi bərpa** olsa da, hələ də 2016-cı il səviyyəsindən xeyli aşağıdır.

Təhlil olunan son illərdə **əkin sahələrinin** strukturunda demək olar ki, heç bir dəyişiklik baş verməyib; **dənli bitkilər 60%**-dən çox payla öz liderliyini qoruyur. Bu sabitlik, bir tərəfdən **ərzaq təhlükəsizliyi üçün ənənəvi istehsalın dayanıqlılığını** nümayiş etdirsə də, digər tərəfdən daha yüksək gəlir gətirə biləcək **alternativ bitkilərə keçid üçün diversifikasiya imkanlarının məhdud olduğunu** göstərir.

İstehsal həcmi indekslərinə nəzər saldıqda, **heyvandarlıq** məhsulları istehsalının son illərdə **ardıcıl** və **stabil artım** göstərdiyi, **bitkiçilikdə** isə illər üzrə **daha kəskin dalğalanmaların** müşahidə olunduğu görünür. Bu, bitkiçiliyin **iqlim** şəraiti kimi xarici amillərdən daha çox asılı olduğunu, heyvandarlığın isə kənd təsərrüfatının ümumi artımında daha **proqnozlaşdırıla bilən** və **sabit** bir sahə olduğunu təsdiqləyir.

*Mənbə: Dövlət Statistika Komitəsi*

# İqtisadiyyatın Sahələri üzrə Fondlar

## 2024-cü il üzrə iqtisadiyyatın sahələri üzrə əsas fondların bölgüsü




İqtisadiyyatın sahələri üzrə əsas fondların (cari və gələcək xərclərin, proqramların və ya sosial öhdəliklərin maliyyələşdirilməsi üçün ayrılmış maliyyə resursları) bölgüsündə ən iri çəki **sənayeyə** məxsusdur **(64.5%).**

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq isə 2023-cü ildə **10.2 milyard manat** ilə **3.5%** paya sahib olmuşdur.

Təhlil olunan bütün digər sahələr kimi, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq da son illərdə fondlar üzrə **artan tendensiya** izləmişdir.

## İqtisadiyyatın sahələri üzrə əsas fondların bölgüsü, milyard manat




*Mənbə: Dövlət Statistika Komitəsi*

# Kənd Təsərrüfatındakı Məşğul Əhali və Sektorun Maliyyə Vəziyyəti

## Məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü, %




## Kənd təsərrüfatında məşğul əhalinin payı, min nəfər




## Adambaşına düşən ümumi daxili məhsulun müaqayisəsi, manat




## Kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin maliyyə nəticələri, milyon manat




Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq ölkə üzrə məşğul əhalinin ən çox **təmərküzləşdiyi** sahələrdən biridir.

Şəhər əhalisinin payı əhali sayında davamlı olaraq üstünlük təşkil etsə də, **2018**-ci ildən bu trend daha da artmışdır.

Son illərdə kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq üzrə adambaşına ümumi daxili məhsulda artım tempi müşahidə olunsa da, bu ölkə iqtisadiyyatında çox cüzi bir paya sahibdir.

Bitkiçilik və heyvandarlıqda maliyyə vəziyyəti **oxşar temp** izləsə də, son illərdə bitkiçiliyin heyvandarlığa olan dominant mövqeyini mənfəətlilikdəki kəskin düşüş nəticəsində itirməsi ilə nəticələnmişdir.

*Mənbə: Dövlət Statistika Komitəsi*

# Azərbaycanın Kənd Təsərrüfatında ən Öndə Gedən Bölgələr

| Rayon | Kənd təsərrüfatının ümumi məhsulu, 2023, milyon AZN |
|---|---|
| Şəmkir | 746.8 |
| Sabirabad | 519.9 |
| Cəlilabad | 466.4 |
| Bərdə | 419.8 |
| Xaçmaz | 416.6 |
| Tovuz | 372.9 |
| Ağcabədi | 369.7 |
| Abşeron | 313.3 |
| Quba | 274.2 |
| Hacıqabul | 268.6 |

| Rayon | Kənd təsərrüfatı bitkilərinin cəmi əkin sahəsi, 2023, km² |
|---|---|
| Cəlilabad | 816.5 |
| Sabirabad | 670.6 |
| Ağcabədi | 576.1 |
| Kürdəmir | 573.3 |
| Bərdə | 550.4 |
| Saatlı | 535.9 |
| Şəki | 504.5 |
| Biləsuvar | 495.1 |
| Beyləqan | 486.2 |
| Neftçala | 462.0 |

| Rayon | Ət istehsalı, kəsilmiş çəkidə, 2023, ton |
|---|---|
| Siyəzən | 24,122 |
| Şabran | 14,612 |
| Ucar | 13,088 |
| Bərdə | 12,137 |
| Xaçmaz | 10,866 |
| Sabirabad | 10,603 |
| Cəlilabad | 8,632 |
| İmişli | 7,769 |
| Salyan | 7,734 |
| Ağcabədi | 7,381 |

| Rayon | İribuynuzlu mal-qaranın sayı, 2023, min baş |
|---|---|
| Sabirabad | 124.6 |
| Bərdə | 104.2 |
| İmişli | 95.9 |
| Cəlilabad | 91.0 |
| Yevlax | 79.4 |
| Ağcabədi | 78.3 |
| Masallı | 74.1 |
| Ağdaş | 68.8 |
| Saatlı | 68.1 |
| Salyan | 61.4 |

746.8 milyon AZN-lik kənd təsərrüfatı məhsulu ilə **Şəmkir** rayonu digər rayonları qabaqlayaraq ölkənin aqrar sektorunda lider mövqeyini nümayiş etdirir. Ondan sonrakı yerləri isə **Sabirabad** (519.9 milyon AZN) və **Cəlilabad** (466.4 milyon AZN) tutur.

**Cəlilabad** rayonu 816.5 km²-lik əkin sahəsi ilə kənd təsərrüfatı bitkilərinin becərilməsi üzrə birinci yerdədir. Bu göstərici rayonun **bitkiçilikdəki** mühüm rolunu vurğulayır.

Ət istehsalı sahəsində **Siyəzən** rayonu 24,122 ton göstərici ilə liderdir. Bu, regionun **heyvandarlıq** sektorunda nə qədər ixtisaslaşdığını göstərir.

**Sabirabad** rayonu 124.6 min baş **iribuynuzlu mal-qara** ilə bu kateqoriyada ilk sırada yer alır. **Bərdə** (104.2 min baş) və İmişli (95.9 min baş) rayonları da bu sahədə öndə gedən rayonlardandır.

*Mənbə: Dövlət Statistika Komitəsi*

# Kənd Təsərrüfatı Məhsullarının İstehlakı və İstehsalı

## Adambaşına düşən kənd təsərrüfatı məhsullarının istehsalı, kq
















## Adambaşına düşən qida məhsullarının istehlakı, kq
















*Mənbə: Dövlət Statistika Komitəsi*

Qeyd: Müvafiq olaraq 2023-cü ildə top 5 (beş) istehsal və istehlak olunan məhsulların tendensiyası nümayiş etdirilmişdir.

# Kənd Təsərrüfatında Bitkiçilik üzrə Məhsuldarlıq

## Kənd təsərrüfatı bitkilərinin əkin sahələri, bütün təsərrüfat kateqoriyaları üzrə, min hektar




## Meyvə və giləmeyvələr üzrə ümumi və bar verən yaşda olan ağacların əkmə sahəsi, min hektar




## 2024-cü il üzrə kənd təsərrüfatı bitkilərinin növlər üzrə məhsuldarlığı, hektar başına sentner məhsul




Təhlil olunan dövrə nəzər yetirdikdə kənd təsərrüfatı bitkilərinin ümumi əkin sahələri **1.5-2 milyon hektar** ətrafındadır ki, bunun **140-240 min hektar** ərazisi **meyvə və giləmeyvələr** üzrə əkmələrin payına düşür.

2024-cü il üzrə kənd təsərrüfatı bitkilərinin əkin sahələri üzrə ən iri çəki **dənli və dənli-paxlalı bitkilərin (10.21 km2)** payına düşmüşdür.

2024-cü il üzrə məhsuldarlıq göstəricisi ən yüksək **şəkər çuğundurunda** müşahidə olunmuşdur.

*Mənbə: Dövlət Statistika Komitəsi*

# Kənd Təsərrüfatına Yararlı Torpaqlar və Əkin Sahələri

## 2024-cü il üzrə kənd təsərrüfatına yararlı torpaqların bölgüsü




## Kənd təsərrüfatı bitkilərinin əkin sahələri, min hektar




- Ölkə üzrə kənd təsərrüfatına yararlı torpaqların böyük qismi **(93%)** biçənək və örüş-otlaq sahələri ilə əkin yerlərinin payına düşmüşdür.
- Dənli və dənli-paxlalı bitkilərdə 2024-cü ildə ən iri çəki buğda (546 min ha) və arpaya (421 min ha) məxsusdur ki, bu iki məhsulun həcmi ayrı-ayrılıqda digər müvafiq il üzrə digər kateqoriyalardan daha üstün olmuşdurş

Ölkə ərazisindəki ümumi əkin yerləri toplamda Azərbaycanın sahəsinin 23%-nə bərabərdir. 2024-cü ildə kənd təsərrüfatına ümumi yararlı torpaqlar ölkə ərazisinin yarısından çoxunu (55%) təşkil etmişdir ki, burada ən yüksək pay biçənək və örüş-otlaq sahələrinə, ən aşağı pay isə dincə qoyulmuş torpaqlara aiddir

min hektar












# Kənd Təsərrüfatında Heyvandarlıq

2023-cü il üzrə istehsal olunan heyvandarlıq məhsularının iqtisadi rayonlar üzrə təsnifatı, ton (ət istehsalı üzrə ən çoxdan ən aza sıralama)

| İqtisadi bölgələr | Ət istehsalı | İri buynuzlu mal-qara (baş) | Süd istehsalı | Yumurta (min ədəd) | Yun |
|---|---|---|---|---|---|
| Quba-Xaçmaz iqtisadi rayonu | 56,902 | 182,091 | 186,342 | 82,672 | 858 |
| Mərkəzi Aran iqtisadi rayonu | 38,430 | 344,165 | 268,912 | 133,221 | 1,291 |
| Qarabağ iqtisadi rayonu | 27,282 | 307,590 | 355,906 | 103,308 | 1,596 |
| Mil-Muğan iqtisadi rayonu | 26,961 | 348,462 | 256,650 | 299,154 | 1,887 |
| Lənkəran-Astara iqtisadi rayonu | 23,791 | 321,473 | 240,514 | 150,103 | 807 |
| Şirvan-Salyan iqtisadi rayonu | 22,673 | 178,392 | 137,977 | 489,998 | 1,182 |
| Qazax-Tovuz iqtisadi rayonu | 22,134 | 192,400 | 192,996 | 91,214 | 2,135 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 19,826 | 214,444 | 191,191 | 98,892 | 1,116 |
| Naxçıvan Muxtar Respublikası | 12,542 | 60,283 | 62,234 | 75,163 | 902 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 11,528 | 125,704 | 136,169 | 57,230 | 1,229 |
| Abşeron-Xızı iqtisadi rayonu | 11,117 | 29,982 | 64,628 | 540,982 | 297 |
| Gəncə-Daşkəsən iqtisadi rayonu | 9,071 | 97,595 | 126,972 | 46,509 | 1,031 |
| Şərqi Zəngəzur iqtisadi rayonu | 6,591 | 97,024 | 57,374 | 16,356 | 785 |
| Bakı şəhəri | 2,195 | 8,114 | 6,126 | 3,352 | 34 |

- Ət istehsalı üzrə **Quba-Xaçmaz** iqtisadi rayonu 2023-cü ildə lider mövqe tutmuşdur, ən az istehsal isə **Bakı** şəhərində baş vermişdir ki, bunda iqlim və coğrafi faktorların rolu əhəmiyyətlidir.
- Ən çox iri buynuzlu mal-qara sıralamayla **Mil-Muğan, Mərkəzi Aran, Lənkəran-Astara** iqtisadi rayonlarında təmərküzləşmişdir ki, burada da müvafiq olaraq **Sabirabad (124.6 min baş), Yevlax (79.4 min baş), Cəlilabad (91 min baş)** rayonları ən öndədir.
- Yumurta istehsalı üzrə Abşeron-Xızı iqtisadi rayonu ən iri çəkiyə malikdir ki, burada da Xızı rayonu (75% istehsal) liderdir.

*Mənbə: Dövlət Statistika Komitəsi*

# Kənd Təsərrüfatında Heyvandarlıq

## Kənd təsərrüfatı müəssisələri üzrə heyvandarlıq məhsullarının istehsalı













- Yumurta istisna olmaqla, 2024-cü ildə bütün növ heyvandarlıq məhsulları üzrə **fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları** üzrə ümumi məhsul həcmi kənd təsərrüfatı müəssisələrini **üstələyir.**
- **1998**-ci ildən etibarən kənd təsərrüfatı müəssisələri üzrə ölkədə **barama istehsalı mövcud olmamışdır.**

## Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə heyvandarlıq məhsullarının istehsalı
















*Mənbə: Dövlət Statistika Komitəsi*

# Kənd Təsərrüfatında Heyvandarlıq

## Kənd yerlərində hər 100 (yüz) əhali təsərrüfatına düşən mal-qara, baş




## Təsərrüfat kateqoriyaları üzrə kəsilmiş çəkidəki ətin növlər üzrə istehsalı, min ton

Kənd təsərrüfatı müəssisələri













Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları













*Mənbə: Dövlət Statistika Komitəsi*

# Kənd Təsərrüfatının Texnika ilə Təminatı

## Müvafiq bitkilərin min hektar sahəsinə düşən kombaynların (maşınların) sayı, ədəd




## Bir kombayna (maşına) düşən müvafiq bitki əkinləri, hektar




## 2023-cü il üzrə dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı məhsulları istehsalçılarına kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışı (Top 10)

| Texnika və avadanlıq | Say, ədəd |
|---|---|
| Otbiçənlər | 269 |
| Kotanlar | 191 |
| Digər kənd təsərrüfatı maşın və avadanlıqları | 120 |
| Traktorlar | 114 |
| Səpici aqreqatlar | 103 |
| Çiləyici və tozlayıcı maşınlar | 84 |
| Malalar | 78 |
| Taxılyığan kombaynlar | 69 |
| Gübrəsəpən maşınlar | 62 |
| Otpresləyənlər | 37 |

## Dövlət tərəfindən güzəştli şərtlərlə kənd təsərrüfatı məhsulları istehsalçılarına satılmış və verilmiş avadanlıqların ümumi dəyəri, milyon manat




*Mənbə: Dövlət Statistika Komitəsi*

# Azərbaycanın Kənd Təsərrüfatı Məhsulları üzrə Beynəlxalq Ticarəti

**Həcminə görə ən çox ixrac olunan kənd təsərrüfatı məhsulları, 2024-cü il üzrə, min ton**




**Dəyərinə görə ən çox ixrac olunan kənd təsərrüfatı məhsulları, 2024-cü il üzrə, milyon ABŞ dolları**




**Həcminə görə ən çox idxal olunan kənd təsərrüfatı məhsulları, 2024-cü il üzrə, min ton**




**Dəyərinə görə ən çox idxal olunan kənd təsərrüfatı məhsulları, 2024-cü il üzrə, milyon ABŞ dolları**




İxrac olunan məhsullar üzrə həcmcə **xurma** ən öndə olsa da, maddi dəyər baxımından **pambıq lifi 178.2 milyon USD** ilə ən çox gəlir gətirmişdir.
**Ət** və **çay** idxal olunan kənd təsərrüfatı məhsullarının həcmi üzrə ilk beşdə yer almasa da, 2024-cü ildə bu məhsulların idxalına **200 milyon USD**-dən çox vəsait xərclənmişdir.

*Mənbə: Dövlət Gömrük Komitəsi*

# Kənd Təsərrüfatının Ümumi Məhsulunun Strukturu







- 2024-cü ildə bitkiçilik üzrə kənd təsərrüfatı müəssisələriinin məhsul strukturunda **tərəvəzlər 25.4%** ilə ən iri paya sahibdir.
- Fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə də **tərəvəzlər bitkiçilik** üzrə məhsul strukturunda ən öndədir **(14%)**. Həm müəssisələr, həm də fərdi sahibkarlıq üzrə ən az pay isə **çaya** məxsusdur.
- Heyvandarlıq məhsullarında istər kənd təsərrüfatı müəssisələri, istərsə də fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə **mal-qara və quşçuluq** müvafiq olaraq **29.9%** və **33.5%** ilə ilk sıradadır.

*Mənbə: Dövlət Statistika Komitəsi*

# Kənd Təsərrüfatı üzrə Kreditləşmə

Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən kreditlər, milyon manat




Özəl müəssisələrə verilən qısamüddətli kreditlər, milyon manat




Özəl müəssisələrə verilən uzunmüddətli kreditlər, milyon manat




- Təhlil olunan dövr ərzində dövlət müəssisələrinə verilən kreditlər sektorda cüzi paya sahib olmuşdur (uzunmüddətli kreditlər, ortalama 2.8 milyon AZN ekv.) ki, burada ən iri həcmli göstərici **2023-cü** ildə qeydə alınmışdır – **16.8 milyon AZN ekv**. (15.1 milyon AZN ekv. xarici valyutada, 1.7 milyon AZN milli valyutada).

- Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektorunda fəaliyyət göstərən hüquqi şəxslərə verilən cəmi kreditlər üzrə uzunmüddətli kreditlərin çəkisi nəzərəçarpan dərəcədə böyükdür (2024-cü il üzrə **406 milyon AZN ekv.** – bu meyar üzrə cəmi verilən kreditlərin **86%-i**)

- 2022-ci ildə qısamüddətli kreditlərin həcmindəki irihəcmli artım **pandemiyadan sonrakı iqtisadi bərpa dövrü** ilə əlaqəlidir.

*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, statistik bülleten*

# Azərbaycan və Digər Ölkələr arasında Müqayisə

ABB

## Kənd təsərrüfatının ümumi məhsulu, 2023, milyard ABŞ dolları




## Tərəvəz istehsalı, 2023, min ton




| Ölkə | Meşə ilə örtülü torpaqlar, min ha | Ölkə ərazisində payı |
|---|---|---|
| Rusiya | 808,790 | 47.9% |
| Belarus | 7,894 | 38.0% |
| **Azərbaycan** | **1,040** | **12.6%** |
| Moldova | 329 | 10.0% |
| Ermənistan | 283 | 10.0% |
| Özbəkistan | 3,295 | 8.0% |
| Qırğızıstan | 869 | 4.5% |
| Tacikistan | 410 | 2.9% |
| Qazaxıstan | 3,337 | 1.2% |

## Mal-qara və quş əti istehsalı**, 2023, min ton




## Dənlilər və dənli-paxlalı bitkilərin istehsalı, 2023, min ton




## Ümumi ağac ehtiyatı, mln $m^3$




İstər sektordakı **ümumi məhsul,** istərsə də ayrılıqda **tərəvəz, mal-qara və quş əti və dənlilər və dənli-paxlalı bitkilərin** istehsal həcmi üzrə **Rusiya** müqayisə olunan ölkələr arasında ən öndədir **(93 milyard ABŞ dolları).**

Azərbaycan 2023-cü ildə kənd təsərrüfatında MDB ölkələri arasında **7.2 milyard ABŞ dolları** dəyərində məhsul istehsal etmişdir.

Dənlilər və dənli-paxlalı bitkilərin istehsalı üzrə Rusiyadan sonra ən çox istehsal **17.1 milyon ton** ilə **Qazaxıstana** məxsusdur.

Meşə ilə örtülü torpaq sahəsinin ölkə ərazisindəki payı baxımından Azərbaycan müqayisə olunan ölkələrdən yalnız **Rusiya** və **Belarusdan** geri qalır.

Ümumi ağac ehtiyatı üzrə ölkədə 2019-cu ildən etibarən (istisna: 2023) **azalan tendensiya** müşahidə olunur.

*Adambaşına 180 kq
**Azərbaycan üçün kəsilmiş çəkidə, digər ölkələr üçün diri çəkidə

*Mənbə: Dövlət Statistika Komitəsi*

# Azərbaycanda Kənd Təsərrüfatı Subsidiyaları: Strateji Dəstək və Rəqəmsal Transformasiya

**Məqsəd:** Məhsuldarlığı artırmaq, xərcləri azaltmaq və aqrar sektoru modernləşdirmək.
**İdarəetmə:** Bütün müraciətlər və ödənişlər rəqəmsal "Fermer Kartı" ilə həyata keçirilir.

### Əsas Dəstək Mexanizmləri

Əkin subsidiyası (hektara görə):

- Baza məbləği **200 AZN/ha** təşkil edir və bitki növünə görə dəyişir;
- İntensiv bağlar üçün **12,000 AZN**-ə qədər dəstək.

Məhsul subsidiyası (tona görə):

- Strateji məhsulların (buğda, pambıq, qarğıdalı və s.) istehsalını və tədarükünü stimullaşdırır;
- Nümunə: Ərzaqlıq buğdaya **100 AZN/ton**, pambığa **195-210 AZN/ton**.

Texnika güzəşti:

- Kənd təsərrüfatı texnikasının alınmasına **40% dövlət güzəşti**.

### 2024-2025 Strateji Prioritetləri

"Yaşıl" təşəbbüslər (COP29):

- Müasir suvarma sistemləri tətbiq edən fermerlərə əlavə **60 AZN/ha** subsidiya (2025-ci ildən).

Ərzaq təhlükəsizliyi:

- Ərzaqlıq buğda və digər strateji bitkilərin (soya, günəbaxan) istehsalına xüsusi diqqət;
- **Buğda**, **arpa** kimi bitkilər **aqrar sığorta** olunur.

İxrac potensialının gücləndirilməsi:

- Yüksək gəlirli və ixracyönümlü məhsulların (fındıq, nar və s.) istehsalı üçün yüksək əmsallı subsidiyalar.

Subsidiyaların verilməsinin məqsədi kiçik və orta fermerləri dəstəkləmək olsa da, təsərrüfatların miqyasına və istehsal həcminə görə iri **aqrar holdinqlər** və **klasterlər** dövlət dəstəyinin ən böyük hissəsini cəlb edən əsas faydalananlar olaraq qalır. Regionlar arasında isə **Mərkəzi Aran** və **Qarabağ** iqtisadi rayonları **pambıq** və **taxıl subsidiyaları** hesabına liderlik edir.

# Kənd Təsərrüfatına Yönəldilmiş Subsidiyaların Tendensiyası

| İllər | Birbaşa subsidiyalar və güzəştlər, milyon AZN | Qeydlər və əsas istiqamətlər |
|---|---|---|
| 2014 | 230 | *Kənd təsərrüfatında istifadə olunan texnika üzrə yanacaq, motor yağları və gübrə satışına güzəştlər.* |
| 2015 | 215 | *Neft qiymətlərinin düşməsi fonunda büdcə xərclərində ümumi azalma və kənd təsərrüfatına ayrılan güzəştlərin təsirlənməsi.* |
| 2016 | 160 | *Devalvasiyadan sonrakı dövr, subsidiyaların həcmində azalma.* |
| 2017 | 270 | *Pambıqçılıq və tütünçülüyün inkişafı üçün subsidiyaların artırılması.* |
| 2018 | 380 | *Strateji məhsullara (pambıq, tütün, barama) dəstəyin gücləndirilməsi.* |
| 2019 | 450 | ***Yeni subsidiya mexanizminə keçid ili.** Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin tətbiqi.* |
| 2020 | 470 | *Tam rəqəmsal sistemə keçid. Əkin subsidiyası əsas dəstək növü oldu.* |
| 2021 | 480 | *Pandemiyaya baxmayaraq subsidiyaların həcmi sabit saxlanıldı və artırıldı.* |
| 2022 | 530 | *Ərzaq təhlükəsizliyi prioritet oldu, buğda istehsalına diqqət artdı.* |
| 2023 | 560 | *Məhsul subsidiyası (buğda üçün 100 AZN/ton) tətbiq edildi, dəstək həcmi artdı.* |

**Əkinçilik (Bitkiçilik) Sektoru: Subsidiyaların əsas və mütləq əksəriyyəti bu sektora yönəlib. Çünki əsas dəstək alətləri məhz əkinçiliklə bağlıdır:**

- Əkin Subsidiyası: Hektara görə ödənilir.
- Məhsul Subsidiyası: Pambıq, tütün, şəkər çuğunduru, buğda kimi bitkilərin tonuna görə ödənilir.
- Texnika Güzəşti: Traktor, kombayn və digər texnikaların 40%-lik güzəşti əsasən əkinçilikdə istifadə olunur.
- Toxum və Ting Subsidiyası: Birbaşa bitkiçiliklə əlaqəlidir.

**Heyvandarlıq Sektoru: Bu sektora ayrılan subsidiyalar daha spesifik və daha kiçik həcmlidir:**

- Süni Mayalanma Subsidiyası: Hər baş cins heyvanın süni mayalanmasına görə 100 AZN ödənilir. Bu, heyvanların cins tərkibinin yaxşılaşdırılmasına yönəlib.
- Arıçılıq Subsidiyası: Hər arı ailəsinə (pətəyə) görə 10 AZN subsidiya verilir.
- Barama Subsidiyası: İstehsal olunan yaş baramanın hər kiloqramına görə subsidiya (məhsul subsidiyası növü).

*Mənbə: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin dövlət büdcəsi layihələri, Kənd Təsərrüfatı Nazirliyinin və Aqrar Subsidiya Şurasının rəsmi press-relizləri və mətbuat konfransları*

# Azərbaycanda Kənd Təsərrüfatının İnkişafı Perspektivləri

## Çağırışlar

- Su resurslarının qıtlığı və səmərəsiz istifadəsi
- Torpaqların deqradasiyası və münbitliyin aşağı düşməsi
- Kiçik torpaq mülkiyyətçiliyi və təsərrüfatların pərakəndəliyi
- Təchizat zəncirinin və bazar infrastrukturunun zəifliyi
- İqlim dəyişikliyinin ikitərəfli təsirləri
- Kadr potensialının, müasir və aqrotexnoloji biliklərin çatışmazlığı

## Təkliflər

- Suvarma sistemlərinin modernləşdirilməsi və suya qənaət texnologiyalarının tətbiqi
- "Ağıllı kənd təsərrüfatı" (smart agriculture) elementlərinin geniş tətbiqi
- Fermer təsərrüfatlarının kooperasiyasının təşviqi
- Aqrar sığorta mexanizminin genişləndirilməsi
- Elm, təhsil və məsləhət xidmətlərinin gücləndirilməsi
- Yüksək dəyərli və ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması
- Aqroekoloji və üzvi istehsalın dəstəklənməsi

Bu sənədin mülkiyyət hüquqları "ABB" ASC-yə aiddir və ümumi məlumat məqsədi ilə daxili araşdırma çərçivəsində hazırlanmışdır. Buradakı məlumatlar investisiya məsləhəti, hüquqi məsləhətlər və ya digər növ peşəkar məsləhət kimi qiymətləndirilməməlidir. Bu sənəd heç bir müqavilənin və ya əməliyyatın əsası olmayacaq və ya təqdim olunan məlumatla əlaqəli heç bir addımın tövsiyə edilməsi kimi dəyərləndirilməyəcək.

Bu sənəd heç bir bildiriş olmadan yoxlama, tamamlama və dəyişikliklərə məruz qala bilər və ABB bu sənəddə əhatə olunan heç bir məlumatın yenilənməsinə görə məsuliyyət daşımır. Burada təqdim olunan fikirlər, proqnozlar və qiymətlər, üçüncü tərəf mənbələrdən əldə edilmiş məlumata əsaslanır və dəyişikliklərə məruz qalaraq bildirişsiz dəyişə bilər. Üçüncü tərəf nəşrləri, tədqiqatlar və müstəqil araşdırmalar, məlumatlarının güvənli mənbələrdən əldə edildiyini bildirir, lakin dəqiqlilik və ya tamamlıq təmin edilmir. Beləliklə, bu sənəddə yerləşdirilmiş məlumatlara heç bir qərarverici əhəmiyyət verilməməlidir.

Bu sənədə yerləşdirilmiş məlumatların dəqiqliyinə əmin olmaq üçün bütün səylər göstərilsə də, ABB, direktorları, əməkdaşları, filialları, müşavirləri və agentləri təqdimat haqqında heç bir doğruluq zəmanəti vermir.Bu məlumatlara əminlik və istifadəyə dair cavabdehlik biləvasitə sənədin istifadəçisinə və ya oxucuya aiddir. Biz bu sənədin istifadəsi ilə əlaqədar, məlumat itkisinə və ya zərərinə, yaxud gəlirlərin itirilməsinə görə heç bir məsuliyyət qəbul etmirik.

Bu sənəd gələcəyə dair proqnozlara əsaslanan ifadələr təşkil edə bilər. Belə ifadələr bəzi təxminlərə və gözləntilərə əsaslansa da, faktiki nəticələr, performans və nailiyyətlər ifadə olunanlardan fərqlilik təşkil edə bilər. Biz hər hansı bir baxışı ictimai olaraq yeniləməyə və dəyişməyə əmin olmağa dair heç bir öhdəlik qəbul etmirik. Üçüncü tərəf saytlarına verilən bağlantılar və istinadlar təkliflərin təsdiqini və ya içindəkilərin fikirlərinə düzgünlüyünü təmin etmir. Təmin olunan məlumatlara əsaslanaraq investisiya qərarları və ya tədbirlər görmədən əvvəl mütəxəssis məsləhətçi ilə məlumat ətrafında ciddi şəkildə nəzəri olmağı tövsiyə edirik. ABB, tədqiqatı ilə bağlılığı olan şirkətlərlə birgə əməkdaşlıq edə bilər. Nəticədə, bu sənəddəki məlumatların obyektivliyinə təsir edə biləcək potensial bir maraqlı tərəfin fərqində olmalısınız.

Hər hansı bir məqsədlə bu sənədin bütün və ya hər hansı bir hissəsinin qeyri-qanuni kopyalanması, çap olunması, dərc edilməsi və ya yenidən tərcümə olunması məhdudlaşdırılmışdır.

**Əlaqədar şəxslər:**

**Səbuhi Həmidli**

+99412 493 00 91 (ext.: 1416)
abb-research@abb-bank.az

Risklərin idarə edilməsi departamenti,
Bazar risklərinin idarə edilməsi şöbəsi

**Nurlan Səfərzadə**

+99412 493 00 91 (ext.: 1422)
abb-research@abb-bank.az

Risklərin idarə edilməsi departamenti,
Bazar risklərinin idarə edilməsi şöbəsi

**Azər Həzizadə**

+99412 493 00 91 (ext.: 1441)
abb-research@abb-bank.az

Risklərin idarə edilməsi departamenti,
Bazar risklərinin idarə edilməsi şöbəsi

# Diqqətinizə görə təşəkkürlər!

Oktyabr 2025